# Müəllimlik peşəsində sərişt əlilik: mahiyyət, məqsəd və səciyyəvi xüsusiyyətlər

**Yaşar Pektanç**
*BDU-nun doktorantı*
**E-mail:** ya_pek@hotmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. G.B. Sultanova,
ped.ü.f.d., dos.Y.A. Allahverdiyev

**Açar sözlər:** müəllim, səriştəlilik, pedaqoji ünsiyyət
**Ключевые слова:** учитель, компетенция, педагогическое общение
**Key words:** teacher, competence, pedagogical communication

Azərbaycan Respublikasında həyata keçirilən təhsil islahatlarının əsas məqsədi-təlim və tərbiyə prosesinin səmərəliliyini yüksəltmək və mənəvi, əxlaqi keyfiyyətlərə malik, insani dəyərləri hər yerdə özündə ehtiva edən, milli və bəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal mövqeyi olan şəxsiyyətlər yetişdirməkdir. Bütün bunları həyata keçirmək üçün ilk növbədə səriştəli müəllim kadrlarının hazırlığı tələb olunur.

Bu səbəbdəndir ki, bütün tarixi dövrlərdə görkəmli şəxsiyyətlər, dövlət adamları müəllimlik peşəsinə yüksək qiymət vermiş, onu dəyərləndirmiş və müəllimliyi cəmiyyətin ən şərəfli və ən müqəddəs peşəsi hesab etmişlər.

Müqəddəs dinimizin banisi Məhəmməd peyğəmbər müəllimə çox böyük deyər verərək özünü müəllim adlandırmışdır. Həmçinin dahi şairimiz Nizami Gəncəvi müəllimi günəşə, XIII əsrdə yaşamış filosof şair Mövlana Cəlaləddin Rumi müəllimi yanar şama, Məhəmməd Füzuli müəllimi gənc qəlbin memarına, Məhəmməd Tağı Sidqi müəllimi dadlı meyvələr yetişdirən bağbana bənzətmiş, Nəsrəddin Tusi isə müəllimi elmin çırağı adlandırmışdır. Görkəmli şair Hüseyn Cavid müəllimlik peşəsini nəzərdə tutaraq demişdir:

Bəxtiyarsan əgər çəkdiyin əmək
Versə cahan süfrəsinə bir çiçək.

Müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəyli bir məqaləsində yazırdı ki, müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, həyatını məhv edər.

Bütün bu müdrik fikirlər arasında XX əsrin dahi şəxsiyyəti, böyük dövlət xadimi Ümummilli Liderimiz Heydər Əliyevin müəllimlik peşəsi haqqında dediyi müdrik sözlər öz xüsusi dəyəri, əhəmiyyəti və peşəyə verdiyi ən yüksək qiyməti ilə seçilir. Ulu Öndərin “Mən yer üzündə müəllim adından yüksək bir ad tanımıram!” kimi qiymətli sözü şübhəsiz müəllimlik peşəsi ilə sıx bağlı olmasından, bu peşəyə yaxından bələd olmasından, ilk peşə ixtisasının müəllimlik olmasından və ilk vəzifə təyinatının da müəllimlik olmasından irəli gəlməkdədir.

Dahi şəxsiyyət Heydər Əliyev 1980-ci illərdə ali məktəb işçilərinin respublika müşavirəsindəki nitqində yeni bir pedaqoji anlayış kimi “Səriştəli müəllim” problemini irəli

sürüdü və yeni müəllim kadrlarının yetişdirilməsini bir vəzifə olaraq təhsil işçilərinin qarşına qoydu. O, müəllimin peşəkarlıq səviyyəsinə, səriştəliliyinə yüksək qiymət verir və səriştəli müəllim obrazının səciyyəsini bele göstərirdi: "...hər bir ali məktəb müəllimi gərək öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, yüksək pedaqoji qabiliyyət və vərdişlərə sahib olsun. Ayrıca ali məktəb müəllimi səlis mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlətə malik olmalıdır. Bunun üçün gərək ali məktəb müəllimi elmi biliklərdən əlavə, natiqlik məharətinə, geniş dünya görüşünə bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin".

"Səriştə" kəlməsi beynəlxalq aləmdə - "kompetensiya" (latın sözü- *competens)* kimi işlədilir. Bunun qarşılığı "uyğun", "peşəyə yararlı", "məqbul sayılma" mənalarını verir. Dilimizdə işlənən "Səriştə" sözü isə farscadan gəlmədir. Farsca "səreştən" "yaratmaq" məsdəri ilə qohumdur, qrammatik əsası "Səriş" sözüdür".

Dilimizdə səriştəlilik və səriştə anlayışları vardır ki, onlar müxtəlif məna daşıyırlar. Səriştəlilik müəllimin yerinə yetirdiyi funksiyanı tələb olunan, yüksək səviyyədə yerinə yetirməsi, onun hörmətli və nüfuzlu olmasıdır. Səriştə isə müəllimin müxtəlif pedaqoji qabiliyyətlərə, müxtəlif müsbət keyfiyyətlərə sahib olmasıdır.

Səriştə əldə olunmuş bilik və bacarıqları praktik fəaliyyətdə səmərəli tətbiq etmək qabiliyyətidir. Hər hansı bir fəaliyyəti həyata keçirmək üçün vacib olan və praktikada səmərəli tətbiq edilən biliklər, bacarıqlar, vərdişlər, dəyərlər, keyfiyyətlər və kompetensiyalar adlanır.

Müəllimlik sənətinin digər əsas xüsusiyyəti olan peşəkarlıq anlayışı bir qədər fərqlidir. Peşəkarlıq müəllimin yalnız ixtisasını yaxşı bilməsi və öyrətməsi deyildir. Peşəkarlıq müəllimlik peşəsinin incəliklərini dərindən bilmək, pedaqoji situasiyanı əvvəlcədən görə bilmək, qiymətləndirmək, öz mövqeyini müəyyənləşdirmək və əsaslı arqumentlərlə mövqeyini müdafiə edə bilməkdir. Peşəkar müəllim yaradıcı fəaliyyət göstərir, cəmiyyətdə öz peşəsinin nüfuzunu, şərəfini daim yüksəldir, yetişdirdiyi tələbə və şagirdlərin bir şəxsiyyət və ləyaqətli insan kimi formalaşmasında mühüm rol oynayır.

Peşəkarlıq birdən-birə deyil, pedaqoji təcrübələr, vəziyyətlər, çalışmalar vasitəsilə damla - damla meydana gələrək inkişaf edir. Məzunun müəllimlik diplomu alması, "Gənc mütəxəssis" adını qazanması, hələ onun peşəkar pedaqoji fəaliyyəti deyildir. O bu peşəkarlığı pedaqoji fəaliyyətdə, təcrübədə çalışaraq qazanacaqdır.

Səriştəli peşəkar müəllimin fəaliyyətinin 6 növünü ayırmaq olar:

1. Səriştəli müəllimin peşə fəaliyyəti onun ixtisasına dair dərin biliyə sahib olması və praktik fəaliyyətdə onu tətbiq etmək bacarığıdır.

2. Refleksiv səriştəlilik - müəllim kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsinin mühüm şərtidir. Refleksiv səriştəlilik - müəllimin peşə keyfiyyətinin bir göstəricisidir ki, bunun sayəsində yaradıcı iş, səriştəli fəaliyyət, səmərəlilik və məhsuldarlıq meydana gəlir. Refleksiya latın sözü olub *"reflexio"*dan gəlmədir və mənası "Geriyə baxmaq", "Əks etdirmək" mənasını verir. Bu görülmüş işin nəticəsini görmək, onu hiss etmək, dəyərləndirmək və qiymətləndirməkdir. Refleksiya - özünə yönələn idrak prosesi, görülən işin təhlili, ağlın və daxili aləmin vəziyyətini müşahidə etmək və şəxsi mövcudluğa əsaslanan tədqiqatçılıq aktıdır. Refleksiyanın layihələşdiricilik, təşkilatçılıq, kommunikativlik, yaradıcı fikir, korrektə etmək funksiyaları vardır.

1. Sosial peşə səriştəliliyi müəllimin kollektivlə həmrəyliyi, şagirdlərlə "Pedaqoji əməkdaşlığı", onlarla düzgün ünsiyyət və münasibəti, ziddiyyətləri aradan qaldırma bacarığı,

ictimaiyyət arasında hörmət və nüfuza malik olması, pedaqoji mədəniyyət və mərifətidir.

2. Müəllimin şəxsi peşə səriştəliliyi onun özünü ifadə etmə, özünü inkişaf etdirmə və özünü təkmilləşdirmə bacarığıdır. Şəxsi peşə səriştəliliyi müəllimin öz işini planlaşdırmağı, layihələşdirməyi bacarması, müstəqil qərarlar çıxara bilməsi deməkdir.

3. Fərdi peşə səriştəliliyi müəllimin özünüidarəetmə, özünənəzarət bacarığına malik olmasıdır.

4. Ömür boyu peşəkarlıq və səriştəlilik davam etməli, peşə şərəfi qocalmamalı, ömür boyu müəllimlik peşəsi uca tutulmalıdır.

Bütün bu cəhətləri nəzərə alaraq peşəkarlığın inkişaf tendensiyası və səviyyələrini belə müəyyənləşdirmək mümkündür:

1. Peşəkarlığa qədər olan mərhələ. Bu gənc müəllimin pedaqoji fəaliyyətə başladığı mərhələdir. Onun pedaqoji göstəriciləri, məhsuldarlığı hələ kifayət qədər deyildir.

2. Pedaqoji fəaliyyətə peşəkar yiyələnmə prosesi. Bu mərhələdə müəllimin pedaqoji fəaliyyəti müsbət qarşılanır.

3. Peşəkarlığın yüksək mərhələsi. Buna pedaqoji ustalıq da demək olar. Bəzi pedaqoji ədəbiyyatda "Ustad pedaqoq" ifadəsi də işlənmişdir.

4. Peşəkarlığın sonrakı mərhələsi. Burada müəllim-pedaqoq məsləhətçi, təcrübəli bir şəxs olaraq öz həmkarlarına, müəllim yoldaşlarına məsləhətlər verir, düzgün yol göstərir. Bu, müasir pedaqoji yanaşmada "Fasilitator" yanaşmasıdır.

Səriştəli müəllim yalnız diplomlu mütəxəssis deyil. O həm də "yaxşı əməkdaşdır", "təcrübəli yoldaşdır", "tərbiyəçidir", "yol göstərən", "istiqamət verən", "bələdçidir". O, "əməkdaşlıq pedaqogikası" və “humanizm prinsiplərinə" uyğun olaraq öz pedaqoji fəaliyyətini qurur.

Müəllimin pedaqoji səriştəliliyi və peşəkarlığı onun yüksək əxlaqi keyfiyyətlərə, milli-mənəvi zənginliklərə, bəşəri dəyərlərə, geniş dünyagörüşünə sahib olmasında, öz ixtisasını dərindən bilməsində və onu öyrətmə qabiliyyətində, pedaqoji, psixoloji və metodiki biliklərə vaqif olmasında, öz yetişdirmələrinə dərin hörmət və qayğıkeşliklə yanaşmasında, tədqiqatçılıq və natiqlik qabiliyyətində, yüksək mədəni davranışında, habelə sağlam, xoş görünüşündə, mehriban ünsiyyətində, səliqəli geyimində özünü göstərir.

Müasir müəllimin səriştəliliyi onun pedaqoji fəaliyyətinin bir çox sahələrini əhatə edir:

1. Müəllimin ümumi pedaqoji səriştəliliyi.
2. Müəllimin ümummədəni səriştəliliyi.
3. Müəllimin sosial-psixoloji səriştəliliyi.
4. Müəllimin tərbiyəçilik səriştəliliyi.
5. Müəllimin ixtisas biliyi səriştəliliyi.
6. Müəllimin didaktik səriştəliliyi.
7. Müəllimin idarəçilik səriştəliliyi.
8. Müəllimin refleksiyası-özünənəzarət, özünütəhlil, özünütəkmilləşdirmə səriştəliliyi.
9. Müəllimin informasiya-kommunikasiya, ünsiyyət mədəniyyəti səriştəliliyi.
10. Müəllimin innovasiya fəaliyyətində, yeni pedaqoji texnologiyalardan istifadə səriştəliliyi.
11. Müəllimin yaradıcı fəaliyyət səriştəliliyi.
12. Müəllimin tədqiqatçılıq səriştəliliyi.
13. Müəllimin nitq qabiliyyəti, natiqlik səriştəliliyi.
14. Müəllimin şəxsi səriştəliliyi.
15. Müəllimin sahibkarlıq səriştəliliyi.

Bu sahələrin hər birinin peşə səriştəliliyi, bacarıqları vardır ki, onlar xüsusi tədqiqat

sahələridir.

Lakin səriştəli müəllimin pedaqoji fəaliyyətini ümumi şəkildə xarakterizə etsək, cəhətləri xüsusilə ayırmaq olar:

— Müəllim öz bilik və dünyagörüşünü, ixtisasını daim inkişaf etdirir və təkmilləşdirir;

— Pedaqoji vəziyyəti düzgün anlayır, öz imkanlarını dəyərləndirir və düzgün qərar çıxarmağı bacarır;

— Müəllim-şagird (tələbə) münasibətlərini düzgün qurur;

— Dəyişən və mürəkkəb şəraitə uyğunlaşır, pedaqoji kollektivlə həmrəy olur;

— Yenilikçidir, yeni pedaqoji üsullardan, texnologiyalardan istifadə etməyi bacarır;

— İxtisasını dərindən bilir və pedaqoji problemləri həll etmək iqtidarındadır;

— İxtisasının, pedaqoji, psixoloji problemlərin tədqiqatçısıdır;

Sadaladığımız xarakterik cəhətlərdən ən mühümü müasir dövrdə səriştəli müəllimin kompüter biliklərinə yiyələnməsidir. Artıq məlumdur ki, müəllim öz funksiyalarının müəyyən qismini kompüter və digər elektron vasitələrinin köməyi ilə həyata keçirir. Bu prosesdə müəllim yenə əsas rolunu saxlayır.

Səriştəli müəllim qloballaşan dünyamızda dünyanın sürətlə dəyişilməsini, daim artan məlumat axınını, vaxt məhdudiyyətinin artmasını, cəmiyyətdə baş verən sosial prosesləri, ekoloji fəlakətləri və s. bilməlidir. Əks təqdirdə pedaqoji prosesdə uğur qazanmaqdan söhbət gedə bilməz. Təhsil sistemində gedən müntəzəm yeniləşmələr, pedaqoji innovasiyalar və təlim texnologiyaları müəllim hazırlığının tətbiqini zəruri etmişdir.

Səriştəli müəllimi şərtləndirən amillər çoxdur. Bunlardan ən vacibi şagirdlərlə normal ünsiyyətin formalaşdırılması bacarığıdır. Müəllimin bütün şagirdlərə eyni, xoş münasibəti göstərməyə hər zaman nail olması, şagirdlərə hörmət və etimad kimi psixoloji dəstək göstərməsi təşkil edir. Səriştəli müəllim şagird şəxsiyyətinə hörmətlə yanaşır, onun müstəqil fikirlərini, tənqidi mülahizələrini və yaradıcı təfəkkürünü çox qiymətli hesab edir. Şagirdin şəxsiyyət kimi formalaşmasına önəm verir.

Səriştəli müəllim tədris etdiyi fənnini sevir və bu fənni şagirdlərə sevdirməyi bacarır. Şagirdlərini sevən, onlara bağlanan müəllimlər tədrisdə uğurlar qazanırlar. Tədris prosesində şagird-müəllim münasibətləri qarşılıqlı inam və məhəbbət əsasında qurulduqda isə şagirdin müəllimə olan sevgisi sonda müəllimin fənninə olan sevgisinə çevrilir.

**Məqalənin aktuallığı.** Səriştəli, peşəkar müəllim hazırlığı, belə müəllimin fəaliyyəti dövlətin gələcəyi, onun qüdrəti, iqtisadiyyatının yüksəlişi və əbədi müstəqilliyi üçün mühüm şərt hesab edilir.

**Məqalənin elmi yeniliyi.** Müəllim pesəkarlığının inkişaf tendensiyasını və səviyyələrini müəyyənləşdirmək.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu, müasir təhsil sisteminin keyfiyyətini artırmaq, müəllim-şagird münasibətlərini yaxşılaşdırmaq, müəllimlər arasındakı pedaqoji ünsiyyəti artırmaqla, daha bilgili kadrlar yetişdirməkdən ibarətdir.

## Ədəbiyyat

1. Hüseynzadə R.L. Səriştəli müəllim kadrlarının hazırlığı təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm amili kimi. bax: "Müəllim hazırlığının aktual problemləri və modernləşdirilməsi". Bakı: Mütərcim, 2015.

2. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.

3. İlyasov M.İ. Səriştəli peşəkar müəllim // Azərbaycan məktəbi, 2016, № 3

4. Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Mütərcim, 2016.

**Я. Пектанц**

## Квалификация в педагогической профессии: сущность, назначение и особенности

## Резюме

Основной целью государственной философии нашей страны, которая развивается сильной и динамичной, является человеческий капитал. В этой работе выло показана что на профессиональной компетентности учителя влияет его, правильное педагогическое общение со студентами и коллегами. Все это, соответственно, положительно влияет на качество образования, повышает эффективность обучения и стимулирует ученика любить предмет, который преподает учитель мастер своего дела.

**Y. Pektanch**

## Qualifications in the teaching profession: the essence, purpose and features

## Summary

The main goal of the state philosophy of our country, which is developing strong and dynamic, is human capital. In this work, it is shown that teacher's professional competence is affected by his correct pedagogical communication with students and colleagues. All this, respectively, has a positive effect on the quality of education, increases the effectiveness of training and stimulates the student to love the subject which taught by the master teacher.

**Redaksiyaya daxil olub:** 12.12.2018